## XXIV Beynəlxalq Qida Sənayesi və XII Beynəlxalq Kənd Təsərrüfatı sərgilərində

# “Bakı Ekspo Mərkəzi” maraqlı ünsiyyət platformasına çevrildi










Metronun “Koroğlu” dayanacağından “Bakı Ekspo Mərkəzi”ndə keçirilən növbəti sərgiyə yola düşürük. İstənilən adamı heyrətləndirən bir məqam: bir neçə il əvvəl keçdiyin yol tanış olsa da, gördüyün yeniliklər elə təəssürat yaradır ki, sanki başqa ölkədə, fərqli məkandasan.

“Bakı Ekspo Mərkəzi” həm də uzaqdan diqqəti gözəlliyi ilə cəlb edən memarlıq abidəsi olmaqla yanaşı, unikal sərgi kompleksi kimi ölkə infrastrukturunun uğurlu inkişafının bariz nümunəsidir. “Baku Expo Center” Sərgi və Konfrans Mərkəzi yüksək beynəlxalq standartlara uyğun inşa edilib; sərgilərlə yanaşı bu mərkəzdə konfranslar, seminarlar, təqdimatlar, habelə işgüzar və əyləncə xarakterli müxtəlif tədbirlər keçirilir. 10 hektar ərazidə yerləşən kompleksin 3 hektarı işgüzar fəaliyyət üçün nəzərdə tutulub. 20 min kvadratmetrdən artıq sahə ekspozisiyaların təqdimatı üçündür. Yaxınlaşdıqca kompleksin gözəlliyinə, onun landşaftla uzlaşan harmoniyasına heyran qalmamaq mümkün deyil. Kompleksin qarşısındakı 500 avtomobildən çox tutumu olan geniş parkinqdən keçib sərgi zalına daxil oluruq. 4.000 kvadratmetr sahəsi olan salonda qonaqların istirahəti və rahatlığı üçün hər cür şərait yaradılıb.

3 gün idi ki, burada XXIV Beynəlxalq Qida Sənayesi, XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya sərgiləri keçirilirdi. Qeyd edək ki, bu sərgilərin keçirilməsi artıq ənənə halını almış, mütəxəssislər arasında görüş yeri, habelə qida sənayesi üzrə avadanlıq, məhsul və xidmətlərin nümayiş olunduğu etibarlı platforma kimi ad qazanmışdır. Sərgini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyarət etmiş, rəsmi açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və “ITE Group” şirkətinin regional direktoru cənab Edvard Stron tədbirin unikallığını qeyd etmişlər.

Belə ki, “WorldFood Azerbaijan” və “Caspian Agro 2018” sərgiləri kimi tədbirlər uğurlarımızı nümayiş etdirməklə yanaşı, xarici tərəfdaşlarla əlaqələrin qurulmasına geniş imkanlar yaradır. “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgiləri ən böyük regional tədbir kimi dünyanın 34 ölkəsini təmsil edən 402 şirkəti bir araya topladı və onlara yerli sahibkarla 3 gün fasiləsiz görüşmək və müzakirələr aparmaq üçün geniş imkanlar yaratdı. Ötən illə müqayisədə “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artmış, region üzrə bütün ixtisaslaşmış sərgilər arasında ikinci yeri tutmuşdur.

Sərgi çərçivəsində ilk dəfə olaraq iştirakçılar üçün yeni məhsul və xidmətlər təşkil etməklə yanaşı, peşəkar auditoriyanın diqqətini cəlb edən əməkdaşlığa şərait yarandı. Eyni zamanda məşhur şirkətlər seminarlar təşkil etdilər. Phos Agro “Kükürdün taxıl və kartofların qidalanma texnologiyasında effektiv qəbulu”, Niderland Krallığının Azərbaycan Respublikasındakı səfirliyi “Hollandiyanın Azərbaycan Kənd Təsərrüfatı sektoruna töhfə perspektivləri”, EuroChem “Məhsulların məhsuldarlığı və keyfiyyətinin artırılması üçün vasitələr. Yeni məhsullar, səmərəlilik və tətbiq texnologiyaları”, Viveros Veron “Azərbaycan kənd təsərrüfatında müasir texnologiyanın inteqrasiyası. İspan texnologiyaları ilə meyvə bağlarının inkişafı”, Aztexnika “ROPA Çuğundur və Kartofyığan kombaynların üstünlükləri” mövzularında kənd təsərrüfatı mütəxəssisləri üçün seminarlar keçirildi.

Pavilyondan pavilyona keçdikcə, yerli və xarici şirkətlərin təmsilçiləri ilə ünsiyyət qurduqca belə bir qənaətə gəlirsən ki, bu sərgi ölkə üçün vacib olduğu qədər də, Azərbaycan bazarına öz məhsulları ilə daxil olmağa maraq göstərən xarici şirkətlər üçün həddən ziyadə zəruridir. “Oriyen” qida makina sənaye şirkətinin təmsilçisi Afif Tarkanla danışırıq. İkinci günün sonunda bizə bukletini verə bilmədiyini təəssüflə qeyd etdi: - Gərək üzrlü sayasınız, heç nə qalmadı, avadanlıqlarımıza elə böyük maraq var idi, nə gətirmişdiksə, hamısı sürətlə paylandı. Bunu gözləmirdik. Bizim şirkət heyvandarlıq, quşçuluq və maldarlıqla məşğul olan fermerlər üçün yem hazırlayan avadanlıqlar istehsal edir. Sərgidə təqdim etdiyimiz istehsal sexlərinin gücü saatda 2 tondan 200 tona qədərdir. Azərbaycana 6 ildir ki, gəlibgedirik. Bu sərgidən sonra bizimlə maraqlanan yeni şirkətləri ziyarət edəcəyik, müəyyən danışıqlar aparılacaq. Bu sərgi həm yerli, həm də bizim kimi yeni bazar axtarışına çıxan şirkətlər üçün böyük maraq kəsb edir.

Arif Tarkana “Azərbaycanlı sahibkarlara nə arzulayardınız” sualını veririk.

- Bir qədər cəsarətli olmağı. Bilirsinizmi, biznes tərəddüd edəndə, ehtiyatlananda uğur gətirməz. Qollarını çırmalayıb, mən bu işi bacaracağam deyib irəli atılmalısan. Başqa heç nəyi düşünmək lazım deyil, öz gücünə inanmasan, irəli getməzsən. Sahibkar mayak kimidir, həmişə irəlidə yanmalıdır ki, arxasınca gəlmək istəyənlər onun işığına yönələ bilsinlər, ona inansınlar.

Sərgidə müxtəlif texnikaları, qurğuları, texnologiyaları və qida məhsullarını təqdim edən şirkətlərin təmsilçilərindən kimə yaxınlaşdıqsa, sərgiyə çıxardıqları nümunələrin üstün tərəflərindən, Azərbaycana yeni bazar kimi olan sonsuz maraqlarından həvəslə danışdı.

Seylon çayını sərgidə təqdim edən “Nabroc” şirkətinin təmsilçisi doktor Əbdül Səməd Müsafirdən soruşduq ki, siz yerli bazardakı Lənkəran çayından ehtiyatlanmırsız ki?

- Xeyr, - deyərək cavab verdi. - Seylon çayı ilə Lənkəran çayı arasında fərq ondan ibarətdir ki, ayrı-ayrı yerlərdə yetişirlər. Bizim çay nisbətən tez dəmlənir. Yəni seylon çayının bazarı var. Biz şirkət kimi ölkə ərazisindəki çayın 7 faizini istehsal edirik və artıq Bakı supermarketlərinə birbaşa çıxmaq imkanını qazandıq.

Ukraynalıların stendinə yaxınlaşıb təmsilçidən xahiş edirik ki, bircə cümlə ilə məqsədlərini şərh etsin. Gülümsəyir və cavab verir: - Ukrayna tortu Azərbaycanda!

- Siz bizim bazarı tortla fəth etmək istəyirsiniz? - sualına qırırla cavab verir: - Niyə də yox! Amma başqa məhsullarımız da var, əgər biz dünyanın ən tələbkar bazarlarına çıxa biliriksə, zənnimcə, Azərbaycanda da bir küncümüz olacaq.

Almaniyanın “CIAAS” şirkətinin regional ixrac meneceri Vasili Seyderlə sərgidə nümayiş etdirdiyi alman traktorunun yanında görüşürük. Azərbaycanda torpaq payları digər ölkələrə nisbətən kiçik olduğuna görə soruşuruq ki, bizim fermerlərə uyğun kiçik texnikaları gətirə bilməzdinizmi, alıcınız daha çox olardı. Vasili əslən qazaxıstanlı olduğundan şərqlilər kimi mehriban gülümsəməyi bacarsa da, soyuqqanlı alman məntiqi ilə dedi ki, bilirsinizmi, dünyada bütün sahələrdə qloballaşma gedir, bu, aqrar sektordan da yan ötmür. Bu texnikanı almağa nəinki sizin kiçik torpaq sahibinin, heç alman fermerinin də gücü çatmaz. Çünki onu alan fermer çalışmalıdır ki, işini elə qursun ki, avadanlığın pulunu mümkün qədər tez çıxarsın. Nəhəng holdinqlər belə texnikanı rahat alır, təyinatı üzrə səbirlə istismar edir. Onların istehsal etdiyi məhsullar kiçik fermerlərə nisbətən daha ucuz başa gəldiyindən rəqabətdən çəkinmirlər. Dünyada qloballaşmaya aparan bir tendensiya gedir. Bu sırada Azərbaycan da istisna deyil. Ölkənizdə iri holdinqlər, aqroparklar yaranır, düşünürəm ki, biz lazım olan vaxtda, lazım olan məkanda daha çox lazım olan avadanlıqlarla iştirak edirik.

Sərgidə Azərbaycanın istehsal etdiyi karton taralar öz yerini arxayınlıqla tutsa da, Sankt-Peterburqun “Absolyut” şirkəti yerli bazarı öyrənmək üçün Bakıdadır. Təmsilçi Oksana Xavanova “Azərbaycanın mükəmməl poliqrafiya bazarında yer tutmaq sizə asan olacaqmı” sualına Rusiyada yalnız piterlilərə xas olan nəzakətlə cavab verir: - Heç nə asan olmur. Biz müəyyən qədər sizin poliqrafiya bazarının məhsullarını araşdırmışıq. Biz sərgiyə yerli bazarda istehsal olunmayan məhsulları çıxarmışıq. Bizim üçün müştərinin nə istəməsi vacib deyil. Vacibi odur ki, biz alıcılarımıza yüksək poliqrafik və ölkədə olmayan texnologiyalarla hazırlanan karton taralar təklif edirik.

“ITE Group” şirkətinin regional direktoru Edvard Stron sərgilərin kənd təsərrüfatı sahəsində ən iri sərgilər olduğunu və bu sektorun ölkəmizdə sürətlə inkişaf etdiyini vurğulayıb. Onu da qeyd etmək lazımdır ki, bu il ilk dəfə olaraq sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), eləcə də Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən də dəstəklənmişdir.

402 şirkətin iştirak etdiyi bu iki sərgi yerli və xarici sahibkarlar üçün təcrübə mübadiləsi baxımından da qiymətlidir. Ən başlıcası isə odur ki, “Baku Expo Center” Sərgi və Konfrans Mərkəzi artıq dünyanın müxtəlif şirkətlərinin yerli sahibkarlarla birlikdə bütün vacib suallara cavab tapmaq imkanı verən maraqlı ünsiyyət platformasına çevrilmişdir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***